# Enerji sahəsində strateji tərəfdaşımız

## Rumıniya Azərbaycandan çəkilən "yaşıl xətt"in də ilk ünvanı olacaq

Bu günlərdə Bakıda öz işini başa çatdırmış Azərbaycan və Rumıniya Hökumətləri arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın 8-ci iclası iki ölkənin etibarlı tərəfdaşlığının daha bir nümunəsi oldu.



Azərbaycanla Rumıniya arasında iqtisadi əlaqələr getdikcə genişlənir. İki ölkə arasında 2009-cu ildə Strateji tərəfdaşlığa dair Birgə Bəyannamə və 2011-ci ildə Strateji tərəfdaşlığın həyata keçirilməsi üzrə Birgə Fəaliyyət Planı, ümumiyyətlə isə əməkdaşlığa dair 60-dan çox sənəd imzalanıb ki, bu da əlaqələrin inkişafına təkan verib. Hazırda enerji, nəqliyyat, turizm, kənd təsərrüfatı, səhiyyə, mədəniyyət sahələrində əlverişli əməkdaşlıq imkanları mövcuddur. İndiyədək Rumıniya Azərbaycana 30 milyon dollar, ölkəmiz isə Rumıniyaya 90 milyon dollar dəyərində investisiya yatırıb. Ötən il Azərbaycanla Rumıniya arasında ticarət dövriyyəsinin həcmi 670 milyon dollar olub. Ticarət dövriyyəsinin böyük hissəsini - 605 milyon dollarını ölkəmizdən Rumıniyaya ixrac təşkil edib.

Prezident İlham Əliyev bu il aprelin 1-də Rumıniyanın energetika naziri Sebastiyan İoan Burdujanı qəbul edərkən də ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin olduğu məmnunluqla vurğulanaraq bütün istiqamətlər üzrə əməkdaşlığın genişləndiyi bildirilib. Dövlətimizin başçısı Müştərək Komissiyanın 8-ci iclasının münasibətlərimizin perspektivlərinin müəyyənləşdirilməsi baxımından önəminə toxunaraq bu tədbirin gündəliyində enerji ilə yanaşı, digər sahələrə aid məsələlərin də olduğunu məmnunluqla qeyd edib.

Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Bu saziş Avropanı "yaşıl enerji" ilə təmin edən əsas kanal kimi Qara dənizin dibi ilə 1100 kilometr uzunluğunda sualtı kabelin çəkilməsini nəzərdə tutur.

Dövlətimizin başçısının Rumıniyanın energetika naziri ilə söhbəti zamanı da Azərbaycanın enerji sektorunda, xüsusilə indiki dövrdə "yaşıl enerji" sahəsində böyük layihələrin reallaşdırıldığı, bir ay əvvəl Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarının önəmi vurğulanıb. Energetika sahəsində artıq xeyli irəliləyişin olduğu bildirilib, Azərbaycandan təbii qazın və Qara dəniz vasitəsilə "yaşıl enerji"nin Rumıniyaya ixracı ilə bağlı fikir mübadiləsi aparılıb.

Hazırda Azərbaycan şaxələndirilmiş şəkildə Rumıniyanın energetika bazarına daxil olmağı hədəfləyir. Belə ki, LNG (sıxılmış təbii qaz) , "yaşıl enerji" və qaz təchizatı layihələri üzrə müzakirələr davam edir. SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) Rumıniyada aktiv fəaliyyət göstərərək bu ölkənin yanacaq bazarında əhəmiyyətli yer tutur. Son üç ildə SOCAR tərəfindən sözügedən ölkəyə 800 milyon dollar dəyərində 1,2 milyon ton neft məhsulları tədarük edilib. "SOCAR Türkiyə" Rumıniyaya 1,1 milyard dollar dəyərində 1,1 milyon ton neft məhsulları, 33 min ton kimya məhsulları, "SOCAR Trading" isə 600 milyon dollar dəyərində təxminən 700 min ton neft məhsulları göndərib.

SOCAR-ın Rumıniya ərazisində 74 yanacaqdoldurma məntəqəsi fəaliyyət göstərir: "SOCAR Romania"da 777 işçi çalışır və ölkəmizin Dövlət Neft Şirkəti Rumıniyada infrastrukturun yaradılmasına 70 milyon avro sərmayə qoyub. Rumıniyaya xam neft və neft məhsullarının tədarükü SOCAR-ın bir neçə filialı tərəfindən həyata keçirilir.

Məlumdur ki, hazırda Azərbaycan 8 ölkəyə, o cümlədən 6 Avropa ölkəsinə mavi yanacaq ixrac edir. Onların da biri məhz Rumıniyadır. Azərbaycan qazı bu ölkəyə keçən ilin əvvəlində daxil olub. Müştərək Komissiyanın 8-ci iclasında iki ölkə arasında imzalanan qaz müqaviləsinin sona çatdığı xatırladılıb və bununla belə qeyd olunub ki, layihə bu il və gələn il davam edə bilər.

Rumıniyanın və Azərbaycanın energetika nazirlərinin də görüşü olub. Görüşdə əməkdaşlıq əlaqələrinin yeni inkişaf mərhələsinə yüksəlməsində enerji layihələrinin rolu qeyd edilib. Eyni zamanda Xəzər-Qara dəniz-Avropa "yaşıl enerji" dəhlizi, "Qara dəniz LNG" layihəsi, "Həmrəylik Halqası", SOCAR və "Romgaz S.A." arasında qaz tədarükü, həmçinin "Transgaz" ilə qaz nəqli üzrə əməkdaşlığın hazırkı vəziyyətinə və perspektivlərinə dair müzakirələr aparılıb. Neft və neft məhsullarının ticarəti sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərinə toxunulub.

Enerji Məsələlərini Tənzimləmə Agentliyində (EMTA) Birgə Komissiyanın Bakıda keçirilən 8-ci iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Rumıniyanın Energetika Sahəsində Milli Tənzimləmə Qurumunun (ANRE) prezidenti Corce-Serciu Nikulesku ilə görüş keçirilib. Bu iki tənzimləyici qurum 2018-ci ildən başlayaraq bir-biri ilə əməkdaşlıq əlaqələri saxlayırlar. Sözügedən görüşdə də qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin uzunmüddətli əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədilə qurumlar arasında anlaşma memorandumunun imzalanması məsələsi müzakirə olunub.

Qeyd edək ki, Azərbaycan və Rumıniya hökumətləri arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın 8-ci iclasında tədbirin protokolu ilə yanaşı, baytarlıq və qida təhlükəsizliyi sahələrində əməkdaşlığa dair anlaşma memorandumu da imzalanıb. Bu da ölkələrimiz arasında iqtisadi əməkdaşlığın getdikcə daha çox sahələri əhatə etdiyinə aydın misaldır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 4 aprel, № 69.- S.9.